**İqtisadi nəzəriyyə. Ümumi iqtisadiyyat. Economic theory. General economics.**
**2026 (1). səh. 44-64. 2026 (1). pp. 44-64. 2026 (1). стр. 44-64.**
**UOT 314.1(479.24); JEL: J11, J13, J14, J24, O15**
**https://doi.org/10.59849/2519-8130.2026.1.44**

**Bəxtiyar Vəli oğlu İsmayılov**
**i.e.n, dos.**
*Bakı Dövlət Unuiversiteti, "Dunya iqtisadiyyatı kafedrası*
*"MVB VISION" MMC direktor*
*E-mail:bismayilov77@gmail.com*

# AZƏRBAYCANDA DEMOQRAFİK İNKİŞAFIN YENİ REALLIQLARI: STRUKTUR DƏYİŞİKLİKLƏRİ VƏ STRATEJİ ÇAĞIRIŞLAR

**XÜLASƏ**

Bu tədqiqatın məqsədi Azərbaycanda demoqrafik inkişafın son onillikdə (2014–2025) keçdiyi struktur transformasiyanı hərtərəfli təhlil etmək və ölkənin qarşısında duran strateji çağırışları elmi əsaslarla müəyyənləşdirməkdir. Tədqiqatın metodoloji əsasını müqayisəli təhlil, statistik təhlil və sistemli yanaşma təşkil edir; araşdırmada Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatları, həmçinin BMT, Dünya Bankı, ÜST və İƏİT kimi beynəlxalq təşkilatların analitik hesabatları istifadə olunmuşdur. Aparılan təhlil göstərir ki, ölkədə əhalinin ümumi sayı artmaqda davam etsə də, artımın tempi əvvəlki dövrlərlə müqayisədə xeyli zəifləmişdir: təbii artım əmsalı 2014-cü ildən 2024-cü ilədək təxminən üç dəfə azalmış, bunun əsas səbəbi isə doğum səviyyəsinin davamlı enişi olmuşdur. Eyni zamanda əhalinin yaş strukturunda dərin dəyişikliklər müşahidə olunur - uşaq yaş qruplarının payı azalır, yaşlı əhalinin xüsusi çəkisi isə davamlı yüksəlir ki, bu da demoqrafik keçidin yeni mərhələsinə keçidi əks etdirir. Əmək qabiliyyətli yaşda ölüm hallarının təhlili kişi və qadın əhali arasında əhəmiyyətli fərqin mövcudluğunu, pandemiyanın uzunmüddətli təsirlərinin hələ tam aradan qalxmadığını göstərir. Bununla yanaşı, təhsilli əhalinin, xüsusilə ali təhsilli şəxslərin sayının artması insan kapitalının keyfiyyət baxımından güclənməsinə dəlalət edir. Tədqiqatın nəticələri onu göstərir ki, gələcək demoqrafik siyasət yalnız əhali sayının artırılmasına deyil, insan kapitalının inkişafına, ailə institutunun möhkəmləndirilməsinə və aktiv yaşlanma modelinin tətbiqinə yönəlməlidir. Məqalə demoqrafik proseslərin makroiqtisadi siyasətlə əlaqələndirilməsi zərurətini əsaslandırır.

**Açar sözlər:** demoqrafik inkişaf, əhalinin yaşlanması, təbii artım, insan kapitalı, demoqrafik siyasət, Azərbaycan

**Bakhtiyar Vali Ismayilov**
*c.e.s assoc. prof.*
*E-mail:bismayilov77@gmail.com*

## NEW REALITIES OF DEMOGRAPHIC DEVELOPMENT IN AZERBAIJAN: STRUCTURAL CHANGES AND STRATEGIC CHALLENGES

**ABSTRACT**

This study aims to provide a comprehensive analysis of the structural transformation of demographic development in Azerbaijan over the past decade (2014–2025) and to identify, on a scientific basis, the strategic challenges facing the country. The methodological framework combines comparative analysis, statistical analysis, and a systemic approach, drawing on official data from the State Statistical Committee of the Republic of Azerbaijan alongside analytical reports from international organizations such as the United Nations, the World Bank, the World Health Organization, and the OECD. The analysis reveals that although the country's total population continues to grow, the pace of growth has slowed markedly: the natural increase rate declined roughly threefold between 2014 and 2024, driven primarily by a sustained decline in the birth rate. At the same time, the age structure of the population is undergoing profound change — the share of children is shrinking while the proportion of older persons continues to rise, reflecting a transition to a new phase of demographic change. Analysis of working-age mortality reveals a substantial gender gap and indicates that the long-term effects of the pandemic have not yet fully dissipated. At the same time, the growing share of the educated population, particularly those with higher education, points to a strengthening of human capital in qualitative terms. The findings suggest that future demographic policy should focus not merely on increasing population size but on developing human capital, strengthening the family institution, and adopting an active-ageing model. The article argues for the need to align demographic processes more closely with macroeconomic policy.

**Keywords:** demographic development, population ageing, natural increase, human capital, demographic policy, Azerbaijan

**Бахтияр Вели оглы Исмайлов**
*к.э.н., доц.*
*E-mail:bismayilov77@gmail.com*

## НОВЫЕ РЕАЛИИ ДЕМОГРАФИЧЕСКОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ: СТРУКТУРНЫЕ ИЗМЕНЕНИЯ И СТРАТЕГИЧЕСКИЕ ВЫЗОВЫ

**АННОТАЦИЯ**

Целью данного исследования является всесторонний анализ структурной трансформации демографического развития Азербайджана за последнее десятилетие (2014–2025 гг.) и научно обоснованное определение стратегических вызовов, стоящих перед страной. Методологическую основу работы составляют сравнительный анализ, статистический анализ и системный подход; в исследовании использованы официальные данные Государственного комитета по статистике Азербайджанской Республики, а также аналитические отчёты таких международных организаций, как ООН, Всемирный банк, ВОЗ и ОЭСР. Проведённый анализ показывает, что, несмотря на продолжающийся рост общей численности населения страны,

темпы этого роста заметно замедлились: коэффициент естественного прироста сократился примерно втрое в период с 2014 по 2024 год, что обусловлено прежде всего устойчивым снижением уровня рождаемости. Одновременно наблюдаются глубокие изменения в возрастной структуре населения - доля детских возрастных групп сокращается, тогда как удельный вес пожилого населения продолжает расти, что отражает переход к новому этапу демографического перехода. Анализ смертности в трудоспособном возрасте выявляет существенный гендерный разрыв и свидетельствует о том, что долгосрочные последствия пандемии ещё не полностью преодолены. Вместе с тем рост численности образованного населения, особенно лиц с высшим образованием, указывает на качественное укрепление человеческого капитала. Результаты исследования показывают, что будущая демографическая политика должна быть направлена не столько на увеличение численности населения, сколько на развитие человеческого капитала, укрепление института семьи и внедрение модели активного долголетия. В статье обосновывается необходимость более тесной увязки демографических процессов с макроэкономической политикой.

**Ключевые слова:** демографическое развитие, старение населения, естественный прирост, человеческий капитал, демографическая политика, Азербайджан

**Giriş**

Müasir dövrdə demoqrafik inkişaf ölkələrin sosial-iqtisadi inkişafını müəyyən edən fundamental amillərdən biri kimi çıxış edir. Əhalinin sayında və strukturunda baş verən dəyişikliklər əmək bazarının formalaşmasına, insan kapitalının inkişafına, istehsal və istehlakın həcminə, sosial müdafiə sisteminin maliyyə dayanıqlılığına və ümumilikdə dövlətin uzunmüddətli inkişaf strategiyasına birbaşa təsir göstərir. Bu səbəbdən demoqrafik proseslərin öyrənilməsi yalnız əhali statistikasının təhlili ilə məhdudlaşmır, həm də iqtisadiyyat, sosial siyasət, regional inkişaf və dövlət idarəçiliyi sahələrində qərarların qəbul edilməsində mühüm analitik baza rolunu oynayır. Son illərdə beynəlxalq təşkilatlar da demoqrafik dəyişiklikləri dayanıqlı inkişafın əsas çağırışlarından biri kimi qiymətləndirir və əhali strukturunda baş verən transformasiyaların iqtisadi inkişaf modellərinə ciddi təsir göstərdiyini vurğulayırlar [13].

XXI əsrin ilk rübü qlobal miqyasda demoqrafik proseslərin əvvəlki dövrlərdən fərqli məzmun kəsb etməsi ilə xarakterizə olunur. Dünyanın əksər ölkələrində doğum səviyyəsinin azalması, orta ömür uzunluğunun artması, əhalinin yaşlanması, urbanizasiya proseslərinin sürətlənməsi və miqrasiya axınlarının genişlənməsi yeni demoqrafik reallıq formalaşdırmışdır. Bu dəyişikliklər bir tərəfdən iqtisadi inkişaf üçün yeni imkanlar yaratsa da, digər tərəfdən əmək resurslarının azalması, sosial xərclərin artması, pensiya sistemlərinin maliyyə dayanıqlığı və regional inkişafın balanslı təmin edilməsi baxımından mühüm problemlər meydana çıxarmışdır. Xüsusilə inkişaf etmiş ölkələrdə yaşlı əhalinin xüsusi çəkisinin artması və əmək qabiliyyətli əhalinin nisbi azalması dövlətlərin iqtisadi siyasətində demoqrafik amilin rolunu daha da gücləndirmişdir [11].

Qlobal demoqrafik transformasiya fonunda Azərbaycan da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Son illərdə ölkədə əhalinin ümumi sayının artımı davam etsə də, bu artımın tempi əvvəlki dövrlərlə müqayisədə zəifləməyə başlamışdır. Doğum səviyyəsinin aşağı düşməsi, təbii artımın azalması, nikah və ailə davranışlarında baş verən dəyişikliklər, daxili və xarici miqrasiya proseslərinin intensivləşməsi, həmçinin yaş strukturunda müşahidə olunan dəyişikliklər demoqrafik inkişafın keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Bununla yanaşı, regionlar arasında

demoqrafik göstəricilərin fərqlənməsi, iri şəhərlərə əhali axınının davam etməsi və gələcəkdə yaşlı əhalinin payının artacağına dair proqnozlar ölkənin sosial-iqtisadi inkişafı üçün yeni çağırışlar formalaşdırır.

Azərbaycanın qarşıya qoyduğu strateji inkişaf hədəfləri, o cümlədən iqtisadiyyatın şaxələndirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, insan kapitalının gücləndirilməsi və regionların balanslı inkişafının təmin olunması demoqrafik proseslərlə sıx bağlıdır. Əhalinin yaş strukturu, əmək qabiliyyətli əhalinin həcmi, təhsil və sağlamlıq göstəriciləri, miqrasiya meylləri və ailə institutunda baş verən dəyişikliklər iqtisadi inkişafın uzunmüddətli perspektivlərini müəyyən edən əsas amillər sırasındadır. Bu baxımdan demoqrafik siyasətin yalnız sosial müdafiə tədbirləri çərçivəsində deyil, həm də milli iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi qiymətləndirilməsi zəruridir.

Müasir şəraitdə demoqrafik problemlərin təhlili yalnız statistik göstəricilərin təsviri ilə kifayətlənməməlidir. Əsas məqsəd bu dəyişikliklərin səbəblərini müəyyənləşdirmək, onların sosial-iqtisadi nəticələrini qiymətləndirmək və gələcək inkişaf perspektivlərini elmi əsaslarla müəyyən etməkdir. Xüsusilə doğum səviyyəsinin azalması, əhalinin yaşlanması, miqrasiya proseslərinin intensivləşməsi, regional demoqrafik fərqlər və insan kapitalının inkişafı arasında qarşılıqlı əlaqələrin kompleks şəkildə araşdırılması dövlət siyasətinin daha səmərəli istiqamətlərinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan təqdim olunan tədqiqatın əsas məqsədi Azərbaycanda demoqrafik inkişafın müasir vəziyyətini hərtərəfli təhlil etmək, son illərdə formalaşan əsas demoqrafik meyilləri müəyyənləşdirmək, onların sosial-iqtisadi inkişafa təsirlərini qiymətləndirmək və ölkənin uzunmüddətli inkişafı baxımından əsas çağırışlar və perspektivləri elmi baxımdan əsaslandırmaqdır. Bu məqsədə nail olmaq üçün tədqiqat çərçivəsində demoqrafik inkişafın nəzəri əsasları ümumiləşdirilmiş, Azərbaycanın əsas demoqrafik göstəricilərinin dinamikası təhlil edilmiş, doğum, ölüm, təbii artım, miqrasiya və yaş strukturunda baş verən dəyişikliklər qiymətləndirilmiş, həmin proseslərin iqtisadi və sosial nəticələri araşdırılmış, eyni zamanda demoqrafik siyasətin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflərin hazırlanması qarşıya vəzifə kimi qoyulmuşdur.

Tədqiqatın metodoloji əsasını müqayisəli təhlil, statistik təhlil, sistemli yanaşma, məntiqi ümumiləşdirmə və analitik qiymətləndirmə metodları təşkil edir. Araşdırmada Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarından, BMT-nin demoqrafik proqnozlarından, İƏİT və digər beynəlxalq təşkilatların analitik hesabatlarından, həmçinin mövzu üzrə müasir elmi ədəbiyyatdan istifadə edilmişdir. Müxtəlif mənbələr üzrə məlumatların müqayisəli təhlili Azərbaycanın demoqrafik inkişaf meyillərinin beynəlxalq proseslər fonunda qiymətləndirilməsinə və gələcək inkişaf perspektivlərinin daha obyektiv əsaslandırılmasına imkan vermişdir. Beləliklə, məqalədə demoqrafik inkişaf yalnız əhali statistikasının dəyişməsi kimi deyil, həm də iqtisadi artım, əmək bazarı, insan kapitalı, regional inkişaf və dövlət siyasəti ilə qarşılıqlı əlaqədə kompleks sosial-iqtisadi proses kimi qiymətləndirilir. Bu yanaşma Azərbaycanın mövcud demoqrafik çağırışlarının mahiyyətinin daha dərindən izah edilməsinə və onların aradan qaldırılması istiqamətində elmi əsaslandırılmış təkliflərin formalaşdırılmasına xidmət edir.

## Demoqrafik inkişafın müasir nəzəri əsasları

Demoqrafik inkişaf cəmiyyətin əhali tərkibində zaman keçdikcə baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini xarakterizə edən mürəkkəb sosial-iqtisadi prosesdir. Bu proses təkcə

əhalinin ümumi sayının artması və ya azalması ilə məhdudlaşmır, eyni zamanda doğum və ölüm səviyyələri, təbii artım, miqrasiya axınları, yaş və cins strukturu, ailə münasibətləri və məskunlaşma xüsusiyyətləri kimi bir-biri ilə qarşılıqlı əlaqədə olan çoxsaylı amilləri özündə birləşdirir. Müasir demoqrafiya elmi əhalinin inkişafını iqtisadi, sosial, institusional və mədəni dəyişikliklərlə qarşılıqlı təsirdə qiymətləndirir. Buna görə də demoqrafik inkişaf ölkənin iqtisadi potensialını, əmək ehtiyatlarını, sosial siyasətin istiqamətlərini və uzunmüddətli inkişaf perspektivlərini müəyyən edən əsas göstəricilərdən biri hesab edilir [13].

Demoqrafik inkişafın əsas komponentlərindən biri əhali artımıdır. Əhali artımı müəyyən dövr ərzində ölkə əhalisinin sayında baş verən dəyişiklikləri ifadə edir və bu dəyişiklik həm təbii hərəkətin, həm də miqrasiya proseslərinin nəticəsində formalaşır. Əhali artımının sabit xarakter daşıması iqtisadi inkişaf üçün əlavə əmək resursları və istehlak bazarı yaratsa da, həddindən artıq sürətli və ya əksinə, uzunmüddətli azalma meylləri sosial-iqtisadi tarazlığın pozulmasına səbəb ola bilər. Əhalinin təbii artımı doğulanların sayı ilə ölənlərin sayı arasındakı fərq əsasında müəyyən edilir və demoqrafik vəziyyətin qiymətləndirilməsində ən mühüm göstəricilərdən biri hesab olunur. Doğum səviyyəsi cəmiyyətin reproduktiv davranışını, ailə institutunun vəziyyətini və gələcək əmək ehtiyatlarının formalaşmasını əks etdirir. Ölüm göstəricisi isə əhalinin sağlamlıq vəziyyətini, tibbi xidmətlərin keyfiyyətini, həyat səviyyəsini və sosial rifahı xarakterizə edir. Bu iki göstəricinin qarşılıqlı nisbəti ölkənin demoqrafik inkişaf trayektoriyasını müəyyənləşdirən əsas amillərdəndir.

Demoqrafik inkişafın digər mühüm elementi miqrasiyadır. Miqrasiya əhalinin ölkədaxili və ya beynəlxalq səviyyədə yer dəyişməsini ifadə edir və əmək bazarı, urbanizasiya, regional inkişaf və insan kapitalının bölgüsü baxımından mühüm rol oynayır. Daxili miqrasiya əsasən iri şəhərlərin inkişafını sürətləndirsə də, bəzi regionlarda əhali azalmasına və əmək resurslarının məhdudlaşmasına səbəb ola bilər. Xarici miqrasiya isə bir tərəfdən əmək bazarındakı tarazlığı dəyişdirir, digər tərəfdən yüksək ixtisaslı kadrların ölkədən axını şəklində insan kapitalının itirilməsi riskini artırır.

Yaş strukturu demoqrafik inkişafın keyfiyyət göstəricilərindən biridir. Əhalinin yaş qrupları üzrə bölgüsü əmək bazarının formalaşmasına, sosial müdafiə sisteminin maliyyələşdirilməsinə, təhsil və səhiyyə xidmətlərinə olan tələbatın həcminə birbaşa təsir göstərir. Əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin yüksək olması iqtisadi inkişaf üçün əlverişli şərait yaratsa da, yaşlı əhalinin payının artması pensiya və səhiyyə sistemləri üzərində fiskal yükün artmasına səbəb olur. Buna görə də müasir demoqrafik tədqiqatlarda yaş strukturunun dəyişməsi ən mühüm strateji göstəricilərdən biri hesab edilir.

Demoqrafik inkişafın izahında ən geniş istifadə olunan konsepsiyalardan biri demoqrafik keçid nəzəriyyəsidir. Bu nəzəriyyə cəmiyyətlərin iqtisadi və sosial inkişaf səviyyəsinə uyğun olaraq doğum və ölüm göstəricilərində baş verən dəyişiklikləri sistemli şəkildə izah edir. Demoqrafik keçid modeli ölkələrin ənənəvi aqrar cəmiyyətdən sənaye və post-sənaye inkişaf mərhələsinə keçidini demoqrafik baxımdan xarakterizə edir [8].

- Birinci mərhələdə həm doğum, həm də ölüm səviyyəsi yüksək olur və əhali artımı zəif xarakter daşıyır. Tibbi xidmətlərin məhdudluğu, aşağı həyat səviyyəsi və yüksək uşaq ölümü bu mərhələnin əsas xüsusiyyətləridir.
- İkinci mərhələdə səhiyyənin inkişafı, sanitariya şəraitinin yaxşılaşması və həyat səviyyəsinin yüksəlməsi nəticəsində ölüm göstəricisi azalır, lakin doğum səviyyəsi hələ də yüksək qalır. Nəticədə əhalinin artım tempi sürətlənir.

- Üçüncü mərhələdə urbanizasiya, təhsil səviyyəsinin yüksəlməsi, qadınların əmək bazarında iştirakının genişlənməsi və ailə planlaşdırmasının yayılması doğum səviyyəsinin azalmasına səbəb olur. Əhali artımı davam etsə də, onun tempi tədricən zəifləyir.
- Dördüncü mərhələdə isə həm doğum, həm də ölüm göstəriciləri aşağı səviyyədə sabitləşir, əhalinin yaşlanması sürətlənir və təbii artım minimum həddə yaxınlaşır. Bir sıra inkişaf etmiş ölkələrdə artıq təbii azalma prosesi müşahidə olunur.

Mövcud mənbələr üzrə göstəricilər göstərir ki, Azərbaycan hazırda demoqrafik keçidin üçüncü mərhələsinin sonu ilə dördüncü mərhələnin başlanğıcı arasında yerləşən ölkələr sırasına daxildir. Son illərdə doğum səviyyəsinin tədricən azalması, təbii artım tempinin zəifləməsi, orta ömür uzunluğunun artması və yaşlı əhalinin xüsusi çəkisinin yüksəlməsi bu qiymətləndirməni əsaslandırır. Bununla yanaşı, ölkədə əmək qabiliyyətli əhalinin payı hələ də yüksək olduğundan demoqrafik dividend imkanları tam tükənməmişdir. Lakin mövcud meyllərin davam etməsi uzunmüddətli perspektivdə yaşlanma prosesinin sürətlənəcəyini və demoqrafik siyasətin yeni prioritetlər əsasında qurulmasını zəruri edəcəyini göstərir.

Demoqrafik inkişafla iqtisadi inkişaf arasında qarşılıqlı təsir mövcuddur və bu təsir hər iki istiqamətdə özünü göstərir. Bir tərəfdən iqtisadi inkişaf demoqrafik davranışa təsir edir, digər tərəfdən demoqrafik proseslər iqtisadi artımın tempini, əmək bazarının imkanlarını və dövlət maliyyəsinin dayanıqlığını müəyyənləşdirir [6]. Əmək bazarının formalaşması bilavasitə əhalinin yaş strukturundan və əmək qabiliyyətli əhalinin sayından asılıdır. Əmək resurslarının kifayət qədər olması istehsalın genişlənməsinə və iqtisadi artımın sürətlənməsinə şərait yaradır. Əksinə, əmək qabiliyyətli əhalinin azalması işçi qüvvəsi çatışmazlığına və əmək məhsuldarlığının yüksəldilməsi zərurətinə səbəb olur. İnsan kapitalının inkişafı da demoqrafik proseslərlə sıx bağlıdır. Əhalinin təhsil səviyyəsi, sağlamlığı və peşə bacarıqları iqtisadi inkişafın keyfiyyət göstəricilərini müəyyən edən əsas amillər sırasındadır. Müasir iqtisadiyyat üçün yalnız əhalinin sayı deyil, onun keyfiyyəti daha böyük əhəmiyyət daşıyır.

Demoqrafik dəyişikliklər istehlak bazarının strukturuna da təsir göstərir. Gənc əhalinin üstünlük təşkil etdiyi cəmiyyətlərdə təhsil, mənzil və istehlak mallarına tələbat daha yüksək olur. Əhalinin yaşlanması isə səhiyyə, sosial xidmətlər və uzunmüddətli qulluq xidmətlərinə olan tələbatı artırır. Dövlət büdcəsinin gəlir və xərcləri də demoqrafik dəyişikliklərdən əhəmiyyətli dərəcədə asılıdır. Əmək qabiliyyətli əhalinin çoxluğu vergi bazasının genişlənməsinə şərait yaratsa da, yaşlı əhalinin payının artması sosial müdafiə və səhiyyə xərclərinin yüksəlməsinə səbəb olur. Bu baxımdan pensiya sisteminin maliyyə dayanıqlılığı və sosial müdafiə mexanizmlərinin səmərəliliyi demoqrafik inkişafın uzunmüddətli nəticələrindən birbaşa asılıdır. Nəticə etibarilə, demoqrafik inkişaf müasir iqtisadi siyasətin ayrılmaz komponentidir. Əhalinin kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişikliklərin vaxtında qiymətləndirilməsi əmək bazarının, insan kapitalının, dövlət maliyyəsinin və sosial müdafiə sisteminin dayanıqlı inkişafının təmin edilməsində mühüm əhəmiyyət daşıyır.

**Qlobal demoqrafik göstəricilərin qitələr üzrə müqayisəli təhlili**

XXI əsrdə demoqrafik inkişaf qlobal iqtisadi və sosial transformasiyaların əsas istiqamətlərindən birinə çevrilmişdir. Əhali sayının dəyişməsi, yaş strukturunun transformasiyası, doğum və ölüm səviyyələrinin dinamikası, miqrasiya proseslərinin intensivləşməsi və gözlənilən ömür uzunluğunun artması artıq yalnız demoqrafik statistikanın göstəriciləri kimi deyil, iqtisadi inkişafın keyfiyyətini və davamlılığını müəyyən edən fundamental amillər kimi qiymətləndirilir [13;16]. Qlobal iqtisadiyyatda

baş verən struktur dəyişiklikləri göstərir ki, ölkələrin rəqabət qabiliyyəti təbii ehtiyatlardan və istehsal potensialından daha çox insan kapitalının keyfiyyəti, əmək resurslarının formalaşması və demoqrafik proseslərin idarə edilməsinin səmərəliliyi ilə müəyyən olunur.

Müasir şəraitdə demoqrafik proseslərin öyrənilməsi xüsusilə aktuallaşmışdır. Bir tərəfdən inkişaf etmiş ölkələrdə doğum səviyyəsinin uzunmüddətli azalması, əhalinin sürətlə yaşlanması və əmək qabiliyyətli əhalinin nisbi çəkisinin azalması sosial müdafiə sistemləri, pensiya təminatı və dövlət maliyyəsi üçün yeni çağırışlar formalaşdırır. Digər tərəfdən inkişaf etməkdə olan ölkələrdə yüksək doğum səviyyəsi və sürətli əhali artımı məşğulluq, təhsil, səhiyyə və infrastrukturun inkişafı baxımından ciddi institusional problemlər yaradır. Beləliklə, müasir dünyada demoqrafik inkişaf həm iqtisadi artımın mənbəyi, həm də onun məhdudlaşdırıcı amillərindən biri kimi çıxış edir [19].

Son illərdə beynəlxalq təşkilatların hesabatlarında demoqrafik dəyişikliklərin iqtisadi siyasətə təsiri xüsusi diqqət mərkəzində saxlanılır. Qlobal əhali artımının əvvəlki onilliklərlə müqayisədə zəifləməsi, regionlar arasında demoqrafik fərqlərin dərinləşməsi və miqrasiya axınlarının yeni istiqamətlər alması əmək bazarının strukturuna, istehlak modelinə, fiskal siyasətə və sosial təminat sistemlərinin maliyyə dayanıqlığına birbaşa təsir göstərir. Bu baxımdan demoqrafik göstəricilərin müqayisəli təhlili yalnız statistik fərqlərin müəyyənləşdirilməsi məqsədi daşımır; eyni zamanda iqtisadi inkişaf strategiyalarının formalaşdırılması üçün analitik baza rolunu oynayır [6; 13].

Qlobal demoqrafik transformasiya fonunda Azərbaycanın mövcud vəziyyəti də xüsusi elmi maraq doğurur. Ölkədə son illərdə doğum səviyyəsinin tədricən azalması, urbanizasiya proseslərinin sürətlənməsi, daxili və xarici miqrasiya axınlarının intensivləşməsi, eləcə də orta ömür uzunluğunun artması demoqrafik inkişafın yeni mərhələyə keçdiyini göstərir. Bu dəyişikliklər uzunmüddətli perspektivdə əmək bazarının formalaşmasına, insan kapitalının inkişafına, dövlət büdcəsinin sosial xərclərinə və pensiya sisteminin maliyyə dayanıqlığına mühüm təsir göstərəcəkdir. Buna görə də Azərbaycanın demoqrafik inkişafının qlobal meyillərlə müqayisəli şəkildə qiymətləndirilməsi elmi və praktik baxımdan aktual tədqiqat istiqamətlərindən biri hesab olunur [11].

Mövcud tədqiqatların əksəriyyətində demoqrafik göstəricilər ayrıca indikatorlar üzrə qiymətləndirilsə də, regionlararası müqayisələrin iqtisadi nəticələri və səbəb–nəticə əlaqələri kifayət qədər sistemli şəkildə araşdırılmamışdır. Xüsusilə demoqrafik keçid mərhələlərinin iqtisadi inkişaf göstəriciləri ilə qarşılıqlı təsiri, yaş strukturunda baş verən dəyişikliklərin fiskal siyasətə və əmək bazarına təsiri, eləcə də bu proseslərin Azərbaycan üçün mümkün nəticələri kompleks yanaşma tələb edir. Bu baxımdan təqdim olunan tədqiqat mövcud boşluğun müəyyən dərəcədə aradan qaldırılmasına yönəlmişdir.

Cədvəl 1.

**Dünya və qitələr üzrə əsas demoqrafik göstəricilərin müqayisəli təhlili (2024)**

| | **Əhali (milyon nəfər)** | **Təbii artım (%)** | **Doğulanlar (%)** | **Ölənlər (%)** | **1 yaşadək uşaq ölümü (%)** | **Kişilər üzrə gözlənilən ömür (il)** | **Qadınlar üzrə gözlənilən ömür (il)** |
|---|---|---|---|---|---|---|---|
| Dünya | 8083 | 8 | 16 | 8 | 27 | 71 | 76 |
| Afrika | 1478 | 23 | 31 | 8 | 44 | 62 | 66 |
| Asiya | 4773 | 7 | 14 | 7 | 21 | 72 | 77 |
| Avropa | 747 | -3 | 8 | 11 | 4 | 76 | 82 |
| Şimali Amerika | 378 | 2 | 11 | 9 | 6 | 75 | 81 |
| Latın Amerikası və Karib hövzəsi | 661 | 7 | 14 | 7 | 14 | 73 | 79 |
| Okeaniya | 46 | 8 | 15 | 7 | 15 | 76 | 77 |

**Mənbə:** Cədvəl [16; 21; 22] mənbələri əsasında tərəfindən tərtib edilmişdir.

Qlobal demoqrafik proseslər son onilliklərdə regionlar arasında əhəmiyyətli fərqlərlə xarakterizə olunur. Əhalinin artım tempi, doğum və ölüm səviyyələri, gözlənilən ömür uzunluğu, eləcə də körpə ölümü kimi əsas göstəricilər hər bir qitənin sosial-iqtisadi inkişaf mərhələsini və demoqrafik keçid səviyyəsini əks etdirən mühüm indikatorlar hesab edilir (cədvəl 1). Müasir dövrdə bu göstəricilərin müqayisəli təhlili yalnız əhali dinamikasının qiymətləndirilməsi baxımından deyil, həm də əmək bazarının gələcək inkişafı, sosial müdafiə sistemlərinin davamlılığı, fiskal siyasətin formalaşdırılması və insan kapitalının inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır [13; 16].

Məlumatların təhlili göstərir ki, dünya əhalisinin əsas hissəsi Asiyada cəmləşmişdir. Təxminən 4,8 milyard nəfərlik əhali ilə Asiya dünya əhalisinin təxminən 60 faizini təşkil edir. Bununla yanaşı, qitədə təbii artım səviyyəsinin artıq 7‰-ə qədər azalması regionun demoqrafik inkişafında yeni mərhələyə keçdiyini nümayiş etdirir. Son onilliklərdə Çin, Cənubi Koreya, Yaponiya və Sinqapur kimi ölkələrdə doğum səviyyəsinin əhəmiyyətli dərəcədə azalması, urbanizasiya proseslərinin sürətlənməsi, qadınların əmək bazarında iştirakının genişlənməsi və ailə modelinin dəyişməsi bütövlükdə Asiyanın demoqrafik dinamikasına ciddi təsir göstərmişdir. Digər tərəfdən Hindistan, Pakistan və bəzi Cənubi Asiya ölkələrində yüksək doğum səviyyəsinin qorunması region daxilində demoqrafik heterogenliyi saxlayır [19].

Afrika hazırda qlobal demoqrafik artımın əsas mənbəyi hesab olunur. Cədvəldə göstərilən 23‰ təbii artım və 31‰ doğum səviyyəsi digər bütün regionlardan əhəmiyyətli dərəcədə yüksəkdir. Bu göstəricilər Afrikanın demoqrafik keçid nəzəriyyəsinin ikinci mərhələsinə daha yaxın olduğunu təsdiqləyir. Regionda əhalinin yaş strukturunda gənclərin üstünlük təşkil etməsi gələcək onilliklərdə əmək ehtiyatlarının artmasını şərtləndirsə də, eyni zamanda təhsil, səhiyyə, məşğulluq və sosial infrastruktur üzərində təzyiqi artırır. Körpə ölümünün 44‰ səviyyəsində qalması və gözlənilən ömür uzunluğunun digər regionlardan aşağı olması isə səhiyyə xidmətlərinin keyfiyyəti və sosial inkişaf problemlərinin hələ də aktual olduğunu göstərir [6; 16].

Avropa isə tamamilə fərqli demoqrafik mənzərə nümayiş etdirir. Region üzrə təbii artımın mənfi (-3‰) olması doğum səviyyəsinin ölüm göstəricilərindən aşağı olduğunu göstərir. Bu vəziyyət əhalinin qocalması prosesinin sürətləndiyini və reproduktiv yaş qruplarının sayının tədricən azaldığını əks etdirir. Avropada doğum səviyyəsinin 8‰, ölüm səviyyəsinin isə 11‰ olması əhalinin təbii yolla azalmasını şərtləndirir. Bununla yanaşı, kişilər üçün 76 il, qadınlar üçün isə 82 il təşkil edən gözlənilən ömür uzunluğu regionun yüksək səhiyyə xidmətləri, sosial müdafiə sistemi və həyat keyfiyyəti ilə izah olunur. Belə demoqrafik struktur gələcək dövrdə pensiya sistemlərinin maliyyələşdirilməsi, əmək bazarında işçi qüvvəsinin çatışmazlığı və dövlət büdcəsi üzərində fiskal yükün artması kimi problemləri daha da aktuallaşdırır [11].

Şimali Amerika nisbətən sabit demoqrafik model nümayiş etdirir. Region üzrə təbii artımın 2‰ səviyyəsində qalması doğumun müəyyən qədər azalmasına baxmayaraq, miqrasiyanın əhali artımına müsbət təsir göstərməsi ilə əlaqədardır. Körpə ölümünün aşağı səviyyədə olması və gözlənilən ömür uzunluğunun yüksək göstəriciləri inkişaf etmiş səhiyyə sisteminin nəticəsi hesab olunur. Bununla yanaşı, son illərdə ABŞ və Kanadada doğum səviyyəsinin azalması uzunmüddətli perspektivdə əmək bazarında struktur dəyişikliklərini qaçılmaz edir [22].

Latın Amerikası və Karib hövzəsində müşahidə olunan göstəricilər demoqrafik keçidin orta mərhələsinə uyğun gəlir. Təbii artımın 7‰ olması, doğumun tədricən azalması və orta ömür uzunluğunun artması regionun sosial-iqtisadi inkişafı ilə əlaqələndirilir. Bununla belə, region

ölkələri arasında inkişaf səviyyəsinin fərqli olması demoqrafik göstəricilərin də ciddi variasiyasına səbəb olur. Bir sıra ölkələr artıq aşağı doğum səviyyəsinə keçdiyi halda, digərlərində yüksək fertiliklik hələ də qorunub saxlanılır [13].

Ən kiçik əhali sayına malik Okeaniya isə inkişaf etmiş ölkələrin üstünlük təşkil etdiyi region kimi seçilir. Təbii artımın müsbət qalması ilə yanaşı, yüksək ömür uzunluğu və aşağı ölüm göstəriciləri burada həyat keyfiyyətinin yüksək səviyyəsini əks etdirir. Avstraliya və Yeni Zelandiya kimi ölkələrdə miqrasiya əhali artımının mühüm komponentlərindən birinə çevrilmişdir [22].

Qitələr üzrə müqayisə göstərir ki, demoqrafik göstəricilər ilə iqtisadi inkişaf arasında güclü qarşılıqlı əlaqə mövcuddur. İnkişaf etmiş regionlarda doğum səviyyəsinin azalması və əhalinin yaşlanması sosial təminat sistemləri üçün yeni çağırışlar formalaşdırdığı halda, inkişaf etməkdə olan regionlarda sürətli əhali artımı məşğulluq, yoxsulluğun azaldılması və insan kapitalının inkişafı baxımından fərqli problemlər yaradır. Bu səbəbdən vahid demoqrafik siyasətin tətbiqi mümkün deyil və hər bir regionun yaş strukturu, reproduktiv davranışı və iqtisadi inkişaf səviyyəsi nəzərə alınmaqla fərqli siyasət alətlərindən istifadə edilməlidir [11; 16].

Azərbaycanın mövcud demoqrafik vəziyyəti bu iki model arasında keçid xarakteri daşıyır. Son illərdə doğum səviyyəsinin azalması, əhalinin yaş strukturunda dəyişikliklər və urbanizasiya proseslərinin sürətlənməsi ölkənin tədricən Avropa tipli demoqrafik xüsusiyyətlərə yaxınlaşdığını göstərir. Bununla yanaşı, əmək qabiliyyətli əhalinin payının hələ də yüksək qalması iqtisadi artım üçün mühüm demoqrafik dividend formalaşdırır. Bu imkanın səmərəli reallaşdırılması isə insan kapitalına investisiyaların artırılması, ailə siyasətinin təkmilləşdirilməsi və məhsuldar məşğulluğun genişləndirilməsi ilə birbaşa bağlıdır [2].

Qitələr üzrə demoqrafik göstəricilərin müqayisəsi göstərir ki, əhali artımının xarakteri ilə sosial-iqtisadi inkişaf səviyyəsi arasında qarşılıqlı və çoxşaxəli əlaqə mövcuddur. Lakin bu əlaqə xətti deyil, demoqrafik keçid mərhələlərinin xüsusiyyətləri, institusional inkişaf səviyyəsi, ailə davranışının transformasiyası, urbanizasiya və insan kapitalının keyfiyyəti kimi amillərin təsiri altında formalaşır. Buna görə də eyni doğum və ya ölüm göstəricisi müxtəlif regionlarda tamamilə fərqli iqtisadi nəticələr yarada bilər [13; 16].

Afrikada müşahidə olunan yüksək doğum səviyyəsi və sürətli təbii artım ilk baxışdan əmək ehtiyatlarının genişlənməsi üçün əlverişli şərait yaratsa da, bu proses iqtisadi artımla paralel inkişaf etmədikdə əks nəticələr doğurur. Əmək bazarına hər il daxil olan milyonlarla gənc üçün kifayət qədər məhsuldar iş yerlərinin yaradılmaması işsizliyin və qeyri-formal məşğulluğun artmasına səbəb olur. Bunun nəticəsində dövlət büdcəsinin sosial xərcləri genişlənir, təhsil və səhiyyə sistemlərinin maliyyələşdirilməsi çətinləşir, adambaşına düşən gəlirlərin artım tempi isə zəifləyir. Başqa sözlə, demoqrafik artım iqtisadi üstünlüyə yalnız insan kapitalına investisiyalar, məhsuldar məşğulluq və institusional islahatlarla müşayiət olunduğu halda çevrilə bilir [19].

Asiyada demoqrafik proseslərin fərqli istiqamətdə inkişaf etməsi regionun iqtisadi transformasiyası ilə sıx bağlıdır. Sənayeləşmə, urbanizasiya, təhsil səviyyəsinin yüksəlməsi və qadınların iqtisadi fəallığının artması ailələrin reproduktiv davranışını dəyişdirmişdir. Nəticədə doğum səviyyəsinin azalması əhalinin yaş strukturunda dəyişikliklərə səbəb olmuş, bir sıra ölkələr artıq yaşlanma mərhələsinə daxil olmuşdur. Bununla yanaşı, əmək qabiliyyətli əhalinin uzun müddət yüksək paya malik olması region ölkələrinin sürətli iqtisadi yüksəlişində mühüm rol oynamışdır. İqtisadi ədəbiyyatda bu hadisə "demoqrafik dividend" kimi xarakterizə edilir və Şərqi Asiya ölkələrinin inkişaf təcrübəsində onun əhəmiyyəti geniş şəkildə əsaslandırılmışdır [6].

Avropada isə demoqrafik proseslərin əsas səbəbləri iqtisadi yox, daha çox sosial və davranış xarakterlidir. Gec nikahlar, ailədə uşaq sayının azalması, qadınların peşəkar fəaliyyətə üstünlük verməsi, mənzil bazarındakı problemlər və həyat dəyərinin yüksəlməsi doğum göstəricilərinin uzunmüddətli azalmasına gətirib çıxarmışdır. Nəticədə regionda təbii artım mənfi zonaya keçmiş, yaşlı əhalinin xüsusi çəkisi isə davamlı şəkildə artmışdır. Bu tendensiya pensiya sistemlərinin maliyyə dayanıqlığını zəiflədir, səhiyyə xərclərini artırır və əmək bazarında işçi qüvvəsinin çatışmazlığı problemini dərinləşdirir. Son illərdə bir çox Avropa ölkəsinin əmək miqrasiyasını təşviq etməsi məhz bu struktur problemlərin kompensasiyasına yönəlmiş siyasət aləti kimi qiymətləndirilə bilər [11].

Şimali Amerika və Okeaniyada müşahidə olunan nisbətən sabit demoqrafik vəziyyət isə təbii artımdan daha çox miqrasiya siyasətinin nəticəsi kimi formalaşır. Bu regionlarda yüksək ixtisaslı əmək miqrasiyası əmək bazarının tələbatını ödəməklə yanaşı, əhalinin yaş strukturunun balanslaşdırılmasına da kömək edir. Beləliklə, miqrasiya artıq yalnız əhali artımının deyil, həm də iqtisadi rəqabət qabiliyyətinin və innovasiya potensialının formalaşmasında strateji amilə çevrilmişdir [22].

Latın Amerikası ölkələrində demoqrafik keçidin orta mərhələsi müşahidə olunur. Doğum səviyyəsinin tədricən azalması və ömür uzunluğunun artması regionun sosial inkişafını əks etdirsə də, gəlir bərabərsizliyi və regional inkişaf fərqləri demoqrafik potensialın tam reallaşdırılmasına mane olur. Bu isə göstərir ki, demoqrafik göstəricilərin yaxşılaşması özlüyündə iqtisadi rifahın təminatçısı deyil; onun iqtisadi nəticələri dövlət institutlarının keyfiyyətindən, əmək məhsuldarlığından və təhsil sisteminin səmərəliliyindən asılıdır [16].

Ümumilikdə, aparılan müqayisəli təhlil demoqrafik inkişafın artıq yalnız əhali statistikası kimi deyil, makroiqtisadi siyasətin əsas komponentlərindən biri kimi qiymətləndirilməsini zəruri edir. Doğum səviyyəsinin azalması, yaşlanmanın sürətlənməsi və miqrasiya axınlarının intensivləşməsi əmək bazarının strukturunu, istehlak modelini, fiskal siyasəti və dövlət maliyyəsinin uzunmüddətli dayanıqlığını birbaşa müəyyənləşdirir. Bu baxımdan demoqrafik göstəricilər iqtisadi inkişafın nəticəsi olmaqla yanaşı, gələcək iqtisadi inkişafın istiqamətlərini formalaşdıran mühüm determinantlardan biri kimi çıxış edir [6; 13].

Azərbaycan üçün bu beynəlxalq təcrübə xüsusi əhəmiyyət kəsb edir. Son illərdə ölkədə doğum səviyyəsinin tədricən azalması, orta ömür uzunluğunun artması və urbanizasiya proseslərinin sürətlənməsi demoqrafik keçidin növbəti mərhələsinə yaxınlaşmanı göstərir. Bu proses yaxın perspektivdə əmək ehtiyatlarının strukturuna, pensiya sisteminin maliyyə dayanıqlığına və dövlətin sosial siyasətinə yeni tələblər formalaşdıracaqdır. Buna görə də ailə institutunun gücləndirilməsi, məhsuldar məşğulluğun genişləndirilməsi, insan kapitalına investisiyaların artırılması və seçici miqrasiya siyasətinin formalaşdırılması Azərbaycanın demoqrafik inkişaf strategiyasının əsas prioritet istiqamətləri kimi qiymətləndirilə bilər. Belə bir yanaşma ölkənin mövcud demoqrafik dividendindən maksimum istifadə etməyə və gələcəkdə yaşlanma prosesinin iqtisadi təsirlərini minimuma endirməyə imkan verəcəkdir [2].

**Azərbaycanda müasir demoqrafik vəziyyətin təhlili**

Son on ildə (2014–2025) Azərbaycanda əhalinin sayında baş verən dəyişiklikləri, illik artım dinamikasını və şəhər-kənd əhalisinin strukturunda müşahidə olunan meylləri qiymətləndirməyə imkan verir. Təhlil göstərir ki, nəzərdən keçirilən dövr ərzində ölkədə əhalinin ümumi sayı artmaqda

davam etsə də, artım tempində tədricən zəifləmə müşahidə olunmuşdur. Bu tendensiya demoqrafik inkişafın yeni mərhələyə keçid etdiyini və təbii artımın əvvəlki dövrlərlə müqayisədə daha aşağı sürətlə formalaşdığını göstərir. 2014-cü ildə Azərbaycanın əhalisi 9 milyon 477,1 min nəfər olduğu halda, 2025-ci ildə bu göstərici 10 milyon 224,9 min nəfərə çatmışdır. Beləliklə, on iki il ərzində ölkə əhalisi təxminən 748 min nəfər artmışdır. Bununla belə, ümumi artımın davam etməsinə baxmayaraq, illik artım göstəricilərinin dinamikası fərqli istiqamət nümayiş etdirir. 2014-cü ildə əhali artımı 115,9 min nəfər (1,2%) təşkil etdiyi halda, 2018-ci ildə bu göstərici 53,3 min nəfərə, 2019-cu ildə isə cəmi 22,6 min nəfərə qədər azalmışdır. Sonrakı illərdə artım müəyyən qədər bərpa olunsa da, əvvəlki dövrlərin səviyyəsinə yüksələ bilməmişdir. 2024-cü ildə illik artım 44,1 min nəfər olmuşdur ki, bu da on il əvvəlki göstəricidən təxminən iki yarım dəfə aşağıdır [2; 3]. Əhali artım tempində müşahidə olunan zəifləmə bir neçə amilin birgə təsiri ilə izah oluna bilər.

- İlk növbədə, doğum səviyyəsinin tədricən azalması, ailələrin orta uşaq sayının aşağı düşməsi və reproduktiv davranış modellərində baş verən dəyişikliklər təbii artımın sürətini məhdudlaşdırmışdır.
- Digər tərəfdən, urbanizasiya prosesinin dərinləşməsi, iqtisadi fəallığın əsasən iri şəhərlərdə cəmləşməsi, təhsil səviyyəsinin yüksəlməsi və əhalinin həyat tərzində baş verən dəyişikliklər də demoqrafik artımın əvvəlki dövrlərlə müqayisədə zəifləməsinə səbəb olmuşdur.
- Bununla yanaşı, miqrasiya prosesləri və pandemiya dövrünün sosial-demoqrafik təsirləri də artım tempinə müəyyən təsir göstərmişdir.

Təhlil edilən dövrdə şəhər və kənd əhalisinin strukturunda da davamlı dəyişikliklər baş vermişdir. 2014-cü ildə şəhər əhalisi 5 milyon 45,4 min nəfər olmaqla ümumi əhalinin 53,2%-ni təşkil etdiyi halda, 2025-ci ildə şəhər əhalisi 5 milyon 562,9 min nəfərə yüksəlmişdir. Lakin diqqətçəkən məqam ondan ibarətdir ki, şəhər əhalisinin mütləq sayı artsa da, onun ümumi əhali içərisində xüsusi çəkisi 54,4 faizə qədər cüzi azalmışdır. Bu, son illərdə şəhərləşmə prosesinin əvvəlki mərhələlərlə müqayisədə daha sabit xarakter aldığını göstərir. Kənd əhalisinin sayı isə 2014-cü ildə 4 milyon 431,7 min nəfərdən 2025-ci ildə 4 milyon 662,0 min nəfərə yüksəlmişdir. Ümumi əhali daxilində kənd əhalisinin xüsusi çəkisi 46,8 faizdən 45,6%-ə qədər azalsa da, kənd yerlərində yaşayan əhalinin mütləq sayında artım davam etmişdir [2;3]. Bu vəziyyət onu göstərir ki, kənd əhalisinin azalması haqqında deyil, daha çox şəhər əhalisinin artım sürətinin kənd əhalisinə nisbətən uzunmüddətli üstünlüyündən danışmaq mümkündür. Son illərdə kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi və kənd infrastrukturunun yaxşılaşdırılması kənd yerlərində məskunlaşmanın müəyyən dərəcədə qorunmasına şərait yaratmışdır.

İllik artım göstəricilərinin faiz ifadəsində də oxşar meyl müşahidə edilir. 2014–2016-cı illərdə artım tempi 1,1–1,2% intervalında dəyişdiyi halda, 2017-ci ildən etibarən bu göstərici 1%-dən aşağı düşmüşdür. Xüsusilə 2019-cu ildə cəmi 0,2% artım qeydə alınmışdır [2]. Sonrakı illərdə göstərici 0,4–0,6% diapazonunda sabitləşmişdir. Bu isə Azərbaycanın artıq yüksək təbii artım mərhələsindən çıxaraq aşağı artım tempinə malik demoqrafik inkişaf mərhələsinə yaxınlaşdığını göstərən mühüm statistik göstəricilərdən biridir.

Ölkədə demoqrafik inkişafın keyfiyyət baxımından yeni xüsusiyyətlər qazanması amili də diqqəti cəlb edir. Belə ki, əhalinin ümumi sayının artımı davam etsə də, artımın əsas xüsusiyyəti artıq yüksək doğum səviyyəsindən deyil, daha çox demoqrafik sabitlik və struktur dəyişikliklərindən formalaşır. Bu vəziyyət yaxın perspektivdə əmək bazarında yaş strukturunun dəyişməsi, yaşlı

əhalinin xüsusi çəkisinin artması, sosial müdafiə və pensiya sisteminə düşən yükün yüksəlməsi kimi yeni çağırışların meydana çıxacağını göstərir. Ümumilikdə, son on il (2014-2025) üzrə statistik göstəricilər Azərbaycanda əhali sayının artımının davamlı xarakter daşıdığını, lakin artım sürətinin tədricən zəiflədiyini, şəhərləşmə prosesinin müəyyən sabitlik mərhələsinə daxil olduğunu və demoqrafik inkişafın artıq kəmiyyət artımından daha çox struktur dəyişiklikləri ilə xarakterizə olunan yeni mərhələyə keçdiyini göstərir. Bu tendensiyalar gələcək dövrdə demoqrafik siyasətin əsas prioritetlərinin yalnız əhali sayının artırılması deyil, həm də insan kapitalının inkişafı, regional demoqrafik tarazlığın qorunması və yaşlanan əhali şəraitində sosial-iqtisadi dayanıqlığın təmin olunması istiqamətində formalaşdırılmasını zəruri edir.

Müqayisə edilən (2014–2025) illər üzrə əhalinin yaş qrupları üzrə xüsusi çəkisinin təhlili göstərir ki, Azərbaycanda demoqrafik struktur tədricən dəyişməkdədir (qrafik 1). Əhalinin ümumi sayı artmaqda davam etsə də, yaş tərkibində müşahidə olunan dəyişikliklər ölkənin demoqrafik inkişafının əvvəlki mərhələlərdən fərqli xüsusiyyətlər qazandığını göstərir. Xüsusilə uşaqların xüsusi çəkisinin azalması, orta yaş qruplarının genişlənməsi və yaşlı əhalinin payının artması demoqrafik keçidin daha yetkin mərhələyə daxil olduğunu göstərən əsas əlamətlərdəndir.

Qrafik 1.

**Azərbaycanda əhalinin yaş strukturunun əsas demoqrafik qruplar üzrə dəyişməsi (ümumi əhaliyə nisbətən, %)**




**Mənbə:** Qrafik [2, 3] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təhlil edilən dövrdə ən diqqətçəkən dəyişiklik 0–4 yaş qrupunda müşahidə olunur. Bu yaş qrupunun ümumi əhali içərisində xüsusi çəkisi 2014-cü ildə 8,8% olduğu halda, 2025-ci ildə 5,6%-ə enmişdir. Bu azalma doğum səviyyəsinin zəifləməsi ilə birbaşa bağlıdır. Başqa sözlə, son illərdə ailələrdə uşaqların sayının azalması, nikah və doğum davranışlarında dəyişiklik, şəhər həyat tərzinin genişlənməsi və sosial-iqtisadi məsuliyyətlərin artması nəticəsində ən kiçik yaş qrupunun əhali strukturundakı payı aşağı düşmüşdür. Bu prosesin nəticəsi olaraq yaxın illərdə məktəbəqədər və ibtidai təhsil yaşlı uşaqların sayında nisbətən azalma meyli güclənə bilər. 5–9 yaş qrupunda da oxşar meyl nəzərə çarpır. 2014-cü ildə bu qrupun xüsusi çəkisi 6,7% olmuş, 2025-ci ildə yenidən 6,7% səviyyəsində qalsa da, aralıq illərdə 8%-dən yuxarı göstəricilər qeydə alınmışdır. Bu dəyişiklik əvvəlki illərdəki nisbətən yüksək doğum dalğasının həmin yaş qrupuna keçməsi ilə izah oluna bilər. Lakin 2020-ci ildən sonra bu qrupun xüsusi çəkisinin azalması onu göstərir ki, doğumun zəifləməsi artıq ardıcıl şəkildə aşağı yaş qruplarına təsir göstərməyə başlamışdır. 10–14 və 15–19 yaş

qruplarında isə müəyyən artım müşahidə edilir. 10–14 yaş qrupunun xüsusi çəkisi 2014-cü ildə 6,8% olduğu halda, 2025-ci ildə 8,1%-ə yüksəlmişdir. 15–19 yaş qrupunda isə göstərici 8,1%-dən 7,8%-ə enmiş, lakin 2020-ci ildən sonra yenidən artım meyli formalaşmışdır [2;3]. Bu vəziyyət əvvəlki illərdə daha yüksək doğum göstəricilərinə malik nəsillərin tədricən yeniyetmə və gənclik yaş qruplarına keçməsi ilə bağlıdır. Nəticə etibarilə, yaxın dövrdə təhsil sistemi, peşə hazırlığı və əmək bazarına daxil olacaq gənc kontingentin planlaşdırılması xüsusi əhəmiyyət kəsb edəcəkdir.

Əmək qabiliyyətli yaş qrupları üzrə dəyişikliklər daha mürəkkəb xarakter daşıyır. 20–24 yaş qrupunun xüsusi çəkisi 2014-cü ildə 9,7% olduğu halda, 2025-ci ildə 6,4%-ə enmişdir. 25–29 yaş qrupunda da azalma müşahidə edilir: bu göstərici 2014-cü ildə 9,7%-dən 2025-ci ildə 6,7%-ə düşmüşdür [2;3]. Bu, gənc əmək resurslarının xüsusi çəkisinin azaldığını göstərir. Səbəb isə əvvəlki dövrlərdə doğumun azalması nəticəsində daha kiçik nəsillərin artıq əmək bazarına daxil olmasıdır. Bunun nəticəsində əmək bazarında gənc kadrların nisbi azalması, ali və peşə təhsili sisteminin məzun kontingentində dəyişikliklər və işçi qüvvəsinin yaş strukturunda yuxarı yaşlara doğru sürüşmə baş verə bilər.

Bunun əksinə olaraq, 30–39 yaş qruplarında artım meyli daha aydın görünür. 30–34 yaş qrupunun xüsusi çəkisi 2014-cü ildə 8,4%, 2025-ci ildə isə 8,6% olmuşdur. 35–39 yaş qrupunda isə artım daha güclüdür: 2014-cü ildə 6,9% olan göstərici 2025-ci ildə 9%-ə çatmışdır [2;3]. Bu o deməkdir ki, ölkədə əsas əmək və ailə quruculuğu yaşında olan əhali qrupu genişlənmişdir. Bu proses iqtisadi baxımdan müəyyən üstünlüklər yaradır: əmək bazarında təcrübəli işçi qüvvəsinin payı artır, istehlak tələbi sabitləşir və sosial-iqtisadi fəallıq üçün potensial güclənir. Lakin eyni zamanda bu yaş qruplarının sonrakı illərdə daha yuxarı yaşlara keçməsi gələcəkdə yaşlanma prosesini sürətləndirə bilər.

40–49 yaş qruplarında da nisbi sabitlik və artım meyli müşahidə olunur. 40–44 yaş qrupunun xüsusi çəkisi 2014-cü ildə 6,6%-dən 2025-ci ildə 7,7%-ə, 45–49 yaş qrupunun payı isə 7%-dən 6,4%-ə dəyişmişdir [2]. Bu göstəricilər göstərir ki, əhalinin orta yaş qruplarında cəmlənməsi davam edir. Belə struktur iqtisadiyyat üçün qısamüddətli dövrdə müsbət təsir göstərə bilər, çünki bu yaş qrupları əmək bazarında daha yüksək peşə təcrübəsinə malik olur. Lakin uzunmüddətli baxımdan həmin qrupların pensiya yaşına yaxınlaşması sosial müdafiə sisteminə əlavə yük yarada bilər.

Yaşlanma meylini daha aydın göstərən əsas göstəricilər 60 yaşdan yuxarı qruplarda müşahidə edilir. 60–64 yaş qrupunun xüsusi çəkisi 2014-cü ildə 3,2% olduğu halda, 2025-ci ildə 5,7%-ə yüksəlmişdir. 65–69 yaş qrupunda artım daha kəskindir: bu göstərici 2014-cü ildə 1,7%-dən 2025-ci ildə 4,6%-ə çatmışdır. 70 və yuxarı yaşda olanların xüsusi çəkisi isə 2014-cü ildə 4,2% olduğu halda, 2025-ci ildə 5,3%-ə yüksəlmişdir [2]. Bu dəyişikliklər Azərbaycanda əhalinin yaşlanması prosesinin artıq statistik baxımdan aydın müşahidə olunduğunu göstərir.

Yaşlı əhali qruplarının payının artmasının əsas səbəbləri arasında orta ömür uzunluğunun artması, səhiyyə xidmətlərinə çıxış imkanlarının genişlənməsi, sosial müdafiə sisteminin inkişafı və həyat şəraitinin nisbətən yaxşılaşması mühüm yer tutur. Lakin bu prosesin nəticələri yalnız demoqrafik deyil, həm də iqtisadi və sosial xarakter daşıyır. Yaşlı əhalinin xüsusi çəkisinin artması pensiya təminatı, səhiyyə xərcləri, sosial xidmətlər və ailədaxili qayğı mexanizmləri üzrə əlavə tələblər yaradır. Əgər doğum səviyyəsi aşağı düşür, yaşlı əhali isə artırsa, bu zaman əmək qabiliyyətli əhali üzərinə düşən sosial yük tədricən yüksəlir.

Ümumilikdə, 2014–2025-ci illər üzrə yaş strukturunun təhlili göstərir ki, Azərbaycanda demoqrafik inkişafın əsas istiqaməti sadəcə əhali sayının artması ilə deyil, əhalinin yaş tərkibinin

dəyişməsi ilə müəyyən olunur. Uşaq yaş qruplarının xüsusi çəkisinin azalması gələcəkdə təhsil, əmək bazarı və reproduktiv potensiala təsir göstərə bilər. Orta yaş qruplarının genişlənməsi hazırkı mərhələdə iqtisadi fəallıq üçün əlverişli imkanlar yaratsa da, uzunmüddətli perspektivdə yaşlanma prosesinin dərinləşməsinə gətirib çıxara bilər. Yaşlı əhalinin payının artması isə sosial müdafiə, pensiya və səhiyyə sistemlərinin daha çevik və dayanıqlı idarə olunmasını zəruri edir. Bu baxımdan, qrafikin məlumatları göstərir ki, Azərbaycan demoqrafik baxımdan yeni mərhələyə daxil olur. Bu mərhələdə əsas vəzifə yalnız əhali artımını qorumaq deyil, həm də yaş strukturunda yaranan dəyişikliklərə uyğun sosial-iqtisadi siyasət formalaşdırmaqdır. Gələcək demoqrafik siyasətdə ailə institutunun dəstəklənməsi, doğumun stimullaşdırılması, gənclərin məşğulluğunun artırılması, aktiv yaşlanma siyasətinin gücləndirilməsi və insan kapitalının inkişafı əsas prioritetlər kimi çıxış etməlidir.

Əhalinin təbii hərəkətinin 2014–2024-cü illər üzrə göstəriciləri Azərbaycanda demoqrafik inkişafın keyfiyyətcə yeni mərhələyə keçdiyini də nümayiş etdirir. Təhlil göstərir ki, bu dövrdə əhalinin təbii artımı müsbət olaraq qalsa da, onun sürəti əhəmiyyətli dərəcədə zəifləmişdir. Bunun əsas səbəbi ölüm hallarının kəskin artması deyil, doğum səviyyəsinin davamlı azalmasıdır. Nəticədə ölkədə demoqrafik artımın mənbəyi tədricən zəifləyərək əhalinin yaş strukturunda və əmək resurslarının formalaşmasında yeni meyllər yaratmışdır.

Qrafik 2.

**Azərbaycanda əhalinin təbii hərəkətinin əsas göstəricilərinin dinamikası**




**Mənbə:** Qrafik [2;3] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təqdim olunan qrafikdən (2) göründüyü kimi, 2014-cü ildə ölkədə təbii artım 114,9 min nəfər təşkil etdiyi halda, 2024-cü ildə bu göstərici 43,4 min nəfərə qədər azalmışdır. Başqa sözlə, on il ərzində təbii artım təxminən üçdəiki hissə azalmışdır. Bu dinamika demoqrafik inkişafın intensiv artım mərhələsindən sabitləşmə və aşağı artım mərhələsinə keçidini göstərir. Əhalinin ümumi sayının artımı davam etsə də, artımın əvvəlki dövrlərlə müqayisədə daha aşağı templə baş verməsi gələcək demoqrafik siyasət üçün yeni çağırışlar yaradır. Təbii artımın azalmasının əsas səbəbi doğum səviyyəsində müşahidə olunan davamlı enişdir. Statistik məlumatlara əsasən, 2014-cü ildə 170,5 min uşaq doğulduğu halda, 2024-cü ildə bu göstərici 102,3 min nəfərə qədər enmişdir. Doğum əmsalı da

hər min nəfərə 18,1-dən 10,0-a qədər azalmışdır. Bu dəyişiklik təsadüfi xarakter daşımır və bir neçə amilin birgə təsiri nəticəsində formalaşmışdır.

- İlk növbədə, urbanizasiya prosesinin genişlənməsi ailə modelinin dəyişməsinə səbəb olmuşdur. Şəhər həyat tərzində yaşayış xərclərinin yüksək olması, mənzil təminatı problemləri və uşaqların təhsilinə çəkilən xərclərin artması ailələrin daha az uşaq sahibi olmasına gətirib çıxarmışdır.
- Digər tərəfdən, ali təhsilin genişlənməsi və qadınların əmək bazarında iştirak səviyyəsinin yüksəlməsi nikah və ilk doğum yaşının artmasına səbəb olmuşdur. Bu isə reproduktiv dövrün qısalmasına və doğum sayının azalmasına təsir göstərən mühüm sosial amillərdən biridir.

Doğum göstəricilərinin azalması ilə yanaşı, ölüm göstəricilərində də müəyyən dəyişikliklər müşahidə olunur. 2014-cü ildə 55,6 min nəfər vəfat etdiyi halda, 2019-cu ilə qədər bu göstəricidə ciddi dəyişiklik baş verməmişdir. Lakin 2020 və 2021-ci illərdə ölüm hallarının müvəqqəti olaraq kəskin artması diqqəti cəlb edir. Ölənlərin sayı 2020-ci ildə 75,6 min, 2021-ci ildə isə 76,9 min nəfərə yüksəlmişdir. Bu artımın əsas səbəbi pandemiyanın səhiyyə sisteminə və əhalinin sağlamlıq vəziyyətinə göstərdiyi təsirlərlə bağlı olmuşdur. Pandemiya dövründə həm yoluxucu xəstəliklərdən ölüm halları artmış, həm də digər xəstəliklərin diaqnostika və müalicəsində yaranan çətinliklər ümumi ölüm səviyyəsinə təsir göstərmişdir. Pandemiyadan sonrakı dövrdə ölüm göstəriciləri yenidən azalma meyli nümayiş etdirmişdir. 2024-cü ildə ölənlərin sayı 58,9 min nəfərə enmiş, ölüm əmsalı isə hər min nəfərə 5,8 səviyyəsində formalaşmışdır. Bu, səhiyyə sisteminin normallaşması və fövqəladə epidemioloji şəraitin aradan qalxması ilə izah edilə bilər. Bununla belə, ölüm səviyyəsinin əvvəlki illərlə müqayisədə tam bərpa olunmaması əhalinin yaş strukturunda baş verən dəyişikliklərlə də əlaqələndirilə bilər. Çünki yaşlı əhalinin xüsusi çəkisinin artması ümumi ölüm göstəricilərinin müəyyən qədər yüksək qalmasına təsir göstərən obyektiv demoqrafik amildir.

Doğum və ölüm göstəricilərində baş verən dəyişikliklərin birgə təsiri təbii artım əmsalında da özünü aydın şəkildə göstərir. 2014-cü ildə hər min nəfərə 12,2 nəfər təşkil edən təbii artım 2024-cü ildə cəmi 4,2 nəfərə qədər enmişdir. Xüsusilə 2020–2021-ci illərdə bu göstəricinin 5,1 və 3,5 promilleyə düşməsi demoqrafik inkişafın son onillikdə ən zəif dövrünü əks etdirir. 2022-ci ildə müəyyən bərpa meyli müşahidə olunsa da, sonrakı illərdə doğum səviyyəsinin yenidən azalması nəticəsində təbii artım əvvəlki səviyyəsinə qayıtmamışdır. Bu dinamika Azərbaycanın demoqrafik keçid prosesinin növbəti mərhələsinə daxil olduğunu göstərir. Əvvəlki dövrlərdə yüksək doğum səviyyəsi hesabına formalaşan təbii artım artıq ailələrin reproduktiv davranışında baş verən dəyişikliklər və əhalinin yaşlanması nəticəsində zəifləyir. Bu isə uzunmüddətli perspektivdə əmək bazarına daxil olacaq gənc nəslin sayının azalmasına, yaşlı əhalinin xüsusi çəkisinin artmasına və demoqrafik yük əmsalının yüksəlməsinə səbəb ola bilər.

Əmək bazarı baxımından bu proses xüsusi əhəmiyyət daşıyır. Doğum səviyyəsinin azalması nəticəsində gələcəkdə əmək qabiliyyətli yaşa daxil olacaq əhali qrupları kiçiləcək, bu isə iqtisadiyyatın ayrı-ayrı sahələrində ixtisaslı işçi qüvvəsinin çatışmazlığı riskini artıra bilər. Digər tərəfdən, yaşlı əhalinin sayının artması pensiya təminatı, səhiyyə və sosial müdafiə sistemlərinə əlavə maliyyə yükü yaradacaqdır. Deməli, demoqrafik dəyişikliklər artıq yalnız sosial deyil, həm də makroiqtisadi və fiskal xarakter daşıyan çağırışlara çevrilməkdədir.

Təbii artımın azalmasının digər mühüm nəticəsi regional inkişaf baxımından da özünü göstərə bilər. Əgər doğum səviyyəsinin azalması xüsusilə kənd və ucqar ərazilərdə daha sürətli davam edərsə, bu, həmin ərazilərdə əmək resurslarının azalmasına, daxili miqrasiyanın güclənməsinə və regional

demoqrafik balansın pozulmasına gətirib çıxara bilər. Buna görə də gələcək demoqrafik siyasətdə yalnız doğumun stimullaşdırılması deyil, regionlarda yaşayış və məşğulluq şəraitinin yaxşılaşdırılması da prioritet istiqamətlərdən biri olmalıdır.

Nəticə etibarı ilə qeyd etmək mümkündür ki, son on il üzrə aparılan təhlil göstərir ki, Azərbaycanda təbii artım hələ də müsbət səviyyədə qalsa da, onun formalaşma mənbələri əhəmiyyətli dərəcədə dəyişmişdir. Doğum səviyyəsinin davamlı azalması, pandemiya dövründə ölüm göstəricilərinin yüksəlməsi və sonrakı illərdə təbii artımın tam bərpa olunmaması demoqrafik inkişafın yeni mərhələsini xarakterizə edir. Mövcud tendensiyalar göstərir ki, gələcək dövrdə ailə institutunun dəstəklənməsi, doğumun stimullaşdırılması, gənc ailələr üçün sosial təminat mexanizmlərinin gücləndirilməsi, reproduktiv sağlamlığın qorunması və aktiv yaşlanma siyasətinin həyata keçirilməsi Azərbaycanın demoqrafik dayanıqlığının təmin olunmasında əsas istiqamətlərdən biri olacaqdır.

**Əmək yaşında itirilən həyat: Azərbaycanda ölüm göstəricilərinin təhlili**

Müvafiq illər üzrə statistik göstəricilər əmək qabiliyyətli yaşda ölüm hallarının Azərbaycanda demoqrafik və sosial-iqtisadi inkişafın mühüm indikatorlarından biri olduğunu göstərir. Təhlil nəticəsində müəyyən edilir ki, nəzərdən keçirilən dövrdə əmək qabiliyyətli yaşda ölənlərin sayı ümumilikdə artım meyli nümayiş etdirmiş, xüsusilə 2020–2021-ci illərdə kəskin yüksəlmiş, sonrakı illərdə isə azalma müşahidə olunsa da, göstəricilər pandemiyadan əvvəlki səviyyəyə tam qayıtmamışdır. Bu dinamika ölkənin səhiyyə sistemi, əmək bazarı və insan kapitalının qorunması baxımından mühüm nəticələr doğurur. 2014-cü ildə əmək qabiliyyətli yaşda ölənlərin ümumi sayı 16,2 min nəfər təşkil etdiyi halda, 2019-cu ildə bu göstərici 18,6 min nəfərə yüksəlmişdir. Artım sürəti yüksək olmasa da, davamlı xarakter daşımışdır. Bu meyl bir tərəfdən əmək qabiliyyətli əhalinin sayının artması, digər tərəfdən isə qeyri-infeksion xəstəliklərin, xüsusilə ürək-damar, onkoloji və metabolik xəstəliklərin yayılmasının genişlənməsi ilə izah edilə bilər. Müasir həyat tərzinin dəyişməsi, fiziki aktivliyin azalması, stress amillərinin güclənməsi və sağlam olmayan qidalanma vərdişləri əmək qabiliyyətli yaşda ölüm riskini artıran əsas amillərdən biri kimi çıxış etmişdir.

Ən ciddi dəyişiklik 2020 və 2021-ci illərdə qeydə alınmışdır. 2020-ci ildə əmək qabiliyyətli yaşda ölənlərin sayı 28 min nəfərə yaxınlaşaraq əvvəlki illə müqayisədə təxminən 50 faiz artmışdır. 2021-ci ildə göstərici müəyyən qədər azalsa da, yenə də 26,8 min nəfər səviyyəsində qalmışdır. Bu dövrün əsas xüsusiyyəti COVID-19 pandemiyasının həm birbaşa, həm də dolayı təsirləridir. Virus infeksiyası nəticəsində ölüm hallarının artması ilə yanaşı, səhiyyə müəssisələrinin yüklənməsi, planlı müalicələrin təxirə salınması, xroniki xəstəliklərin gec diaqnostikası və tibbi xidmətlərə çıxış imkanlarının məhdudlaşması ümumi ölüm göstəricilərinə əlavə təsir göstərmişdir. Beləliklə, pandemiya əmək qabiliyyətli yaş qrupunun sağlamlıq vəziyyətinə gözləniləndən daha ciddi təsir göstərmişdir. 2022-ci ildən başlayaraq ölüm göstəricilərində azalma müşahidə olunmuşdur. Əmək qabiliyyətli yaşda ölənlərin sayı 21,2 min nəfərə enmiş, 2024-cü ildə isə 20,2 min nəfər təşkil etmişdir. Bu azalma pandemiyanın təsirlərinin zəifləməsi, vaksinasiya proqramlarının nəticə verməsi, səhiyyə sisteminin fəaliyyətinin normallaşması və tibbi xidmətlərin əvvəlki rejimə qayıtması ilə bağlıdır. Bununla belə, göstəricilər hələ də 2014–2019-cu illərin səviyyəsindən yüksəkdir ki, bu da pandemiyanın uzunmüddətli demoqrafik və tibbi nəticələrinin tam aradan qalxmadığını göstərir.

Aparılan tədqiqatın mühüm nəticələrindən biri əmək qabiliyyətli yaşda kişilər və qadınlar arasında ölüm səviyyəsində ciddi fərqin mövcud olması ilə bağlıdır. Bütün dövr ərzində kişilər

arasında ölüm halları qadınlarla müqayisədə təxminən üç dəfə yüksək olmuşdur. Belə ki, 2024-cü ildə əmək qabiliyyətli yaşda ölən 20,2 min nəfərin təxminən 14 min nəfəri kişilər, 6,2 min nəfəri isə qadınlar olmuşdur. Müvafiq yaş qrupunda hər 1000 nəfərə düşən ölüm göstəricisi kişilər arasında 4, qadınlarda isə 1,8 təşkil etmişdir. Bu fərq yalnız Azərbaycana xas deyil, beynəlxalq təcrübədə də geniş müşahidə olunan demoqrafik xüsusiyyətdir.

Kişilər arasında ölüm səviyyəsinin yüksək olmasının əsas səbəbləri sırasında daha riskli əmək şəraiti, istehsalat və yol-nəqliyyat qəzaları, siqaret və alkoqol istifadəsinin daha geniş yayılması, sağlamlıqla bağlı profilaktik müayinələrə gec müraciət edilməsi və ürək-damar xəstəliklərinin daha erkən yaşlarda inkişaf etməsi mühüm rol oynayır. Qadınlarda isə sağlam həyat tərzi vərdişlərinin daha geniş yayılması, tibbi xidmətlərdən istifadə səviyyəsinin yüksək olması və bioloji amillər ölüm göstəricilərinin nisbətən aşağı qalmasına şərait yaradır.

Əmək qabiliyyətli yaşda ölüm hallarının artması yalnız demoqrafik deyil, həm də iqtisadi baxımdan ciddi nəticələr doğurur. Bu yaş qrupu ölkənin əsas istehsal və vergi potensialını formalaşdıran əmək resurslarını əhatə etdiyindən, vaxtından əvvəl ölüm hallarının artması insan kapitalının itirilməsi, əmək məhsuldarlığının azalması və iqtisadi artım imkanlarının zəifləməsi ilə nəticələnir. Bununla yanaşı, ailələrin gəlir imkanlarının azalması, sosial təminat sisteminə əlavə yükün yaranması və səhiyyə xərclərinin artması kimi dolayı təsirlər də meydana çıxır.

Xüsusilə pandemiya dövründə qeydə alınan artım göstərdi ki, ictimai sağlamlıq sahəsində yaranan fövqəladə vəziyyətlər qısa müddət ərzində əmək bazarına və makroiqtisadi sabitliyə ciddi təsir göstərə bilir. Əmək qabiliyyətli əhalinin sağlamlığının qorunması yalnız səhiyyə siyasətinin deyil, həm də iqtisadi təhlükəsizliyin əsas komponentlərindən biri kimi qiymətləndirilməlidir.

Ümumilikdə, aparılan təhlil göstərir ki, Azərbaycanda əmək qabiliyyətli yaşda ölüm səviyyəsi uzunmüddətli dövrdə müəyyən artım meyli nümayiş etdirmiş, pandemiya illərində kəskin yüksəlmiş, sonrakı mərhələdə isə tədricən azalma müşahidə olunsa da, əvvəlki səviyyəyə tam qayıtmamışdır. Kişilər arasında ölüm səviyyəsinin qadınlardan əhəmiyyətli dərəcədə yüksək qalması bu sahədə gender yönümlü profilaktik səhiyyə tədbirlərinin gücləndirilməsini zəruri edir. Gələcək dövrdə qeyri-infeksion xəstəliklərin profilaktikası, sağlam həyat tərzinin təşviqi, əməyin mühafizəsinin təkmilləşdirilməsi, erkən diaqnostika proqramlarının genişləndirilməsi və əmək qabiliyyətli əhalinin sağlamlığının qorunmasına yönəlmiş kompleks siyasətin həyata keçirilməsi insan kapitalının davamlı inkişafı və iqtisadi dayanıqlığın təmin olunması baxımından strateji əhəmiyyət daşıyacaqdır.

**Azərbaycanda əhalinin təhsil səviyyəsinin qiymətləndirilməsi**

Azərbaycanda təhsil səviyyəsinin tədricən yüksəldiyini və insan kapitalının keyfiyyət göstəricilərinin yaxşılaşdığını statistik mənbələr də göstərir. Belə ki, bu sahədə aparılan islahatlar və son illərin (2019-2025) təhlili göstərir ki, bu dövrdə artım yalnız təhsilli əhalinin sayında deyil, həm də təhsil pillələrinin strukturunda baş vermişdir. Xüsusilə ali və orta ixtisas təhsilli əhalinin sayının davamlı artması iqtisadiyyatın bilik tutumlu inkişaf modelinə keçidinin mühüm sosial əsaslarından biri kimi qiymətləndirilə bilər.

Cədvəl 2.

**Azərbaycanda 15 və yuxarı yaşlı əhalinin təhsil səviyyəsinin əsas göstəriciləri (min nəfər)**

| | **Təhsilli əhali (cəmi)** | **Ali təhsilli** | **Orta ixtisas** | **Peşə təhsilli** | **Orta təhsilli (tam və ümumi)** |
|---|---|---|---|---|---|
| 2019 | 7434 | 1212 | 695 | 414 | 5113 |
| 2020 | 7456 | 1218 | 697 | 414 | 5127 |
| 2021 | 7534 | 1237 | 704 | 418 | 5175 |
| 2022 | 7607 | 1250 | 711 | 421 | 5225 |
| 2023 | 7705 | 1266 | 720 | 427 | 5292 |
| 2024 | 7811 | 1299 | 730 | 433 | 5349 |
| 2025 | 7933 | 1336 | 741 | 440 | 5416 |

**Mənbə:** Cədvəl [2; 3] mənbəyi əsasında müəllif tərəfindən hazırlanmışdır.

.

Cədvəl 2-dən göründüyü kimi, 15 və yuxarı yaşda təhsilli əhalinin ümumi sayı 2019-cu ildə 7 milyon 434 min nəfər olduğu halda, 2025-ci ildə 7 milyon 933 min nəfərə çatmışdır. Beləliklə, altı il ərzində bu göstərici təxminən yarım milyon nəfər artmışdır. Bu dinamika ölkədə təhsil xidmətlərinə əlçatanlığın genişlənməsi, ali təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, regionlarda təhsil imkanlarının yaxşılaşdırılması və əhalinin təhsilə marağının yüksəlməsi ilə sıx bağlıdır. Ən diqqətçəkən dəyişiklik ali təhsilli əhalinin sayında müşahidə olunur. 2019-cu ildə 1 milyon 212 min nəfər olan ali təhsilli əhalinin sayı 2025-ci ildə 1 milyon 336 min nəfərə yüksəlmişdir. Bu artım ali təhsil sistemində aparılan islahatların, qəbul imkanlarının genişləndirilməsinin, yeni ixtisas proqramlarının tətbiqinin və əmək bazarında yüksək ixtisaslı kadrlara tələbin artmasının nəticəsi kimi qiymətləndirilə bilər. Müasir iqtisadiyyatın rəqəmsallaşması, innovasiya yönümlü inkişaf modeli və xidmət sektorunun genişlənməsi ali təhsilin iqtisadi dəyərini daha da artırmışdır. Nəticədə, əhali arasında ali təhsil almağa maraq yüksəlmiş və bu meyl statistik göstəricilərdə də öz əksini tapmışdır.

Orta ixtisas təhsili üzrə də müsbət dinamika müşahidə edilir. Bu kateqoriyada təhsil alanların sayı 695 min nəfərdən 741 min nəfərə qədər artmışdır. Artımın əsas səbəbi əmək bazarında praktik bacarıqlara malik mütəxəssislərə ehtiyacın yüksəlməsi, texniki və xidmət sahələrinin inkişafı, peşə və orta ixtisas təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması istiqamətində həyata keçirilən islahatlardır. Bu proses iqtisadiyyatın müxtəlif sahələrində ixtisaslı orta səviyyəli kadr təminatının güclənməsinə şərait yaradır.

Peşə təhsili üzrə artım nisbətən zəif olsa da, müsbət istiqamət qorunmuşdur. 2019-cu ildə 414 min nəfər olan peşə təhsilli əhali 2025-ci ildə 440 min nəfərə yüksəlmişdir. Bu göstərici göstərir ki, peşə təhsilinə maraq artsa da, onun inkişaf tempi ali təhsil ilə müqayisədə daha aşağıdır. Bunun əsas səbəbləri sırasında uzun illər formalaşmış sosial stereotiplər, ali təhsilə üstünlük verilməsi və bəzi peşələr üzrə əmək bazarının cəlbediciliyinin kifayət qədər yüksək olmaması qeyd edilə bilər. Bununla yanaşı, son illərdə peşə təhsili müəssisələrinin modernləşdirilməsi və dual təhsil modelinin tətbiqi gələcəkdə bu istiqamətdə daha sürətli artım üçün əlverişli zəmin yaradır.

Əhalinin ən böyük hissəsini əvvəlki kimi tam orta və ümumi orta təhsilli şəxslər təşkil edir. 2019-cu ildə bu kateqoriya üzrə göstərici 5 milyon 113 min nəfər olduğu halda, 2025-ci ildə 5 milyon 416 min nəfərə çatmışdır. Bu artım ümumi əhali sayının yüksəlməsi ilə yanaşı, orta təhsilin demək olar ki, universal xarakter almasının nəticəsidir. Bununla belə, təhsil strukturunun təhlili göstərir ki, orta təhsilli əhalinin artımı ali təhsillilərin artım tempi ilə müqayisədə daha aşağıdır. Bu isə təhsil

strukturunun tədricən daha yüksək ixtisaslı insan kapitalı istiqamətində transformasiya olunduğunu göstərir.

Statistik göstəricilər insan kapitalının keyfiyyət baxımından da mühüm dəyişikliklərə işarə edir. Ali və orta ixtisas təhsilli əhalinin sayının artması əmək məhsuldarlığının yüksəlməsi, innovasiya potensialının genişlənməsi və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması üçün mühüm baza yaradır. Təhsil səviyyəsi yüksəldikcə əmək bazarında çeviklik artır, yeni texnologiyaların mənimsənilməsi sürətlənir və yüksək əlavə dəyər yaradan fəaliyyət sahələrinin inkişafı üçün zəruri insan resursları formalaşır. Digər tərəfdən, təhsil səviyyəsinin yüksəlməsi demoqrafik proseslərə də təsir göstərir. Beynəlxalq təcrübə göstərir ki, təhsil səviyyəsinin artması ailə planlaşdırılması, sağlam həyat tərzi, əmək bazarında fəallıq və gəlir səviyyəsi ilə birbaşa əlaqəlidir. Azərbaycanda da son illərdə ali təhsilli əhalinin artması reproduktiv davranış modellərinin dəyişməsinə, əmək bazarında qadınların iştirakının yüksəlməsinə və insan kapitalının keyfiyyətinin yaxşılaşmasına təsir göstərən əsas amillərdən biri kimi qiymətləndirilə bilər.

Bununla yanaşı, statistik dinamika müəyyən çağırışları da ortaya qoyur. Ali təhsilli əhalinin sayı artsa da, iqtisadiyyatın bütün sahələrində yüksək ixtisaslı iş yerlərinin eyni sürətlə yaradılması vacib məsələ olaraq qalır. Əks halda, təhsil səviyyəsinin yüksəlməsi əmək bazarında struktur uyğunsuzluqları, ixtisas üzrə məşğulluq problemlərini və beyin axını risklərini gücləndirə bilər. Eyni zamanda peşə təhsilinin inkişaf tempinin nisbətən aşağı olması istehsal və xidmət sektorlarında texniki kadr çatışmazlığı riskini də saxlayır.

Ümumilikdə, təhlil edilən illər üzrə təhsil göstəricilərinin təhlili Azərbaycanda insan kapitalının keyfiyyət baxımından müsbət istiqamətdə inkişaf etdiyini göstərir. Təhsilli əhalinin ümumi sayının, xüsusilə ali və orta ixtisas təhsilli şəxslərin sayının artması ölkənin uzunmüddətli iqtisadi inkişaf potensialını gücləndirən mühüm amildir. Lakin bu potensialın tam reallaşdırılması üçün təhsil sisteminin əmək bazarı ilə daha sıx inteqrasiyası, peşə təhsilinin nüfuzunun artırılması, innovativ bacarıqların inkişaf etdirilməsi və yüksək ixtisaslı insan resurslarının ölkə daxilində səmərəli istifadəsini təmin edən iqtisadi siyasətin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Məhz belə kompleks yanaşma təhsil göstəricilərinin iqtisadi artıma və sosial rifaha real təsirini daha da gücləndirə bilər.

## Nəticə

Aparılmış tədqiqatlar göstərir ki, Azərbaycanda demoqrafik inkişaf son onillikdə yeni struktur mərhələsinə daxil olmuşdur. Bu mərhələnin əsas fərqləndirici xüsusiyyəti əhalinin sayındakı dəyişikliklərdən daha çox, onun yaş, reproduktiv və sosial-demoqrafik strukturunda baş verən keyfiyyət dəyişiklikləridir. Doğum səviyyəsinin azalması, təbii artım tempinin zəifləməsi, əhalinin yaşlanmasının sürətlənməsi və əmək qabiliyyətli əhali strukturunda baş verən dəyişikliklər demoqrafik inkişafın gələcək istiqamətlərini müəyyənləşdirən əsas amillərə çevrilmişdir. Eyni zamanda təhsil səviyyəsinin yüksəlməsi və insan kapitalının keyfiyyətində müşahidə olunan müsbət dinamika bu proseslərin yalnız risk deyil, həm də yeni inkişaf imkanları yaratdığını göstərir.

Araşdırmanın nəticələri demoqrafik proseslərin sosial və iqtisadi inkişafdan ayrılıqda qiymətləndirilə bilməyəcəyini bir daha təsdiq edir. Demoqrafik göstəricilərdə baş verən dəyişikliklər əmək bazarının formalaşmasına, istehsal resurslarının həcminə, dövlətin fiskal dayanıqlılığına, sosial müdafiə sisteminin maliyyə yükünə və uzunmüddətli iqtisadi artım imkanlarına birbaşa təsir göstərir.

Bu baxımdan demoqrafik inkişaf artıq yalnız statistik göstəricilər toplusu deyil, ölkənin davamlı inkişaf modelinin strateji komponenti kimi çıxış edir.

Müəyyən edilmiş meyllər göstərir ki, qarşıdakı dövrdə demoqrafik siyasətin əsas məqsədi əhalinin sayının artırılmasından daha çox, onun keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına yönəlməlidir. İnsan kapitalının inkişafı, sağlam həyat tərzinin təşviqi, ailə institutunun möhkəmləndirilməsi, reproduktiv sağlamlığın qorunması, gənclərin məşğulluğunun genişləndirilməsi və aktiv yaşlanma siyasətinin həyata keçirilməsi demoqrafik dayanıqlığın əsas şərtləri kimi qiymətləndirilməlidir. Bununla yanaşı, təhsil, səhiyyə, məşğulluq və regional inkişaf siyasətlərinin vahid strateji yanaşma çərçivəsində əlaqələndirilməsi demoqrafik dəyişikliklərin mənfi təsirlərinin azaldılmasına və mövcud potensialın daha səmərəli reallaşdırılmasına imkan verə bilər.

Hesab etmək olar ki, Azərbaycanın demoqrafik inkişafının yeni reallıqları dövlət idarəçiliyində daha çevik, elmi əsaslandırılmış və uzunmüddətli yanaşmaların tətbiqini zəruri edir. Demoqrafik proseslərin müntəzəm monitorinqi, statistik əsaslı qərarvermə mexanizmlərinin təkmilləşdirilməsi və insan kapitalına yönəlmiş investisiyaların artırılması gələcək inkişafın əsas prioritetləri sırasında yer almalıdır. Yalnız bu halda demoqrafik transformasiyanın yaratdığı çağırışlar idarəolunan inkişaf amilinə çevrilə, ölkənin iqtisadi rəqabət qabiliyyətinin, sosial rifahının və milli inkişaf strategiyasının dayanıqlılığı daha da möhkəmləndirilə bilər.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Azərbaycanın statistik göstəriciləri 2025. Bakı: Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Demoqrafik göstəricilər. https://www.stat.gov.az/source/demoqraphy/
3. Azərbaycan Respublikasının Prezidenti. (2021). Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474
4. Muradov, Ş. M. (2004). İnsan potensialı: Əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm. https://www.preslib.az/en/historical/page/dsefnvr
5. Muradov, Ş. M. (2008). Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: Əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897–2007-ci illər). Bakı: Elm. https://www.azstat.gov.az/Kitweb/zipfiles/00579.pdf
6. Bloom, D. E., Canning, D., & Sevilla, J. (2003). The Demographic Dividend: A New Perspective on the Economic Consequences of Population Change. Santa Monica, CA: RAND Corporation. https://www.rand.org/pubs/monograph_reports/MR1274.html
7. International Labour Organization, United Nations Economic Commission for Europe, & United Nations Population Fund. (2025). Demographic Change in Europe and Central Asia. ILO. https://www.ilo.org/sites/default/files/2025-11/ILO_UNECE_UNFPA_Demographic%20Change%20in%20Europe%20and%20Central%20Asia.pdf
8. Lee, R. (2003). The Demographic Transition: Three Centuries of Fundamental Change. Journal of Economic Perspectives, 17(4), 167–190.
9. Lee, R., & Mason, A. (Eds.). (2011). Population Aging and the Generational Economy: A Global Perspective. Edward Elgar Publishing. https://doi.org/10.4337/9780857930583

10. Mustafazade, S. (2025). Current trends in demographic processes in the context of sustainable development of the Republic of Azerbaijan. Journal of Lifestyle and SDGs Review. https://www.researchgate.net/publication/393170181
11. Organisation for Economic Co-operation and Development. (2024). Society at a Glance 2024: OECD Social Indicators. Paris: OECD Publishing. https://doi.org/10.1787/918d8db3-en
12. Preston, S. H., Heuveline, P., & Guillot, M. (2001). Demography: Measuring and Modeling Population Processes. Blackwell Publishers.
13. United Nations, Department of Economic and Social Affairs. (2024). World Population Prospects 2024. New York: United Nations. https://population.un.org/wpp/
14. United Nations. (2024). World Population Prospects 2024: Data Booklet. New York: United Nations.
15. United Nations Development Programme. (2024). Human Development Report 2023/2024: Breaking the Gridlock – Reimagining Cooperation in a Polarized World. https://hdr.undp.org/system/files/documents/global-report-document/hdr2023-24reporten.pdf
16. United Nations Population Fund. (2025). State of World Population 2025. New York: UNFPA.
17. United Nations Population Fund. (2025). Demographic Dividends and Sustainable Development in Central Asia. https://eeca.unfpa.org/sites/default/files/pub-pdf/2025-09/Web-22_Demographics%20and%20SD_V7.pdf
18. World Bank. (2009). Azerbaijan: Demographic Change and Its Policy Implications. World Bank. https://documents1.worldbank.org/curated/en/368221468226212241/
19. World Bank. (2025). World Development Indicators 2025. Washington, DC: World Bank.
20. World Health Organization. (2023). WHO Data: Azerbaijan. https://data.who.int/countries/031
21. World Health Organization. (2023). World Health Statistics 2023: Monitoring Health for the SDGs. https://www.who.int/data/gho/publications/world-health-statistics
22. World Health Organization. (2024). World Health Statistics 2024: Monitoring Health for the SDGs. Geneva: WHO.

**Daxil olub: 24.03.2026.**
**Çapa qəbul olunub: 20.04.2026**